**UDC:** 004.3; 004.4; 025.4
**LBC:** 91.9: 78; 78.36; 78.37
**MJ №** 260
10.33864/2617-751X.2025.v8.i1.164-172

# Policy for Completing University Libraries with Electronic Resources

**Sevda Mammadova***

**Abstract.** The rapid penetration of information technology in our lives, the growing demand for electronic resources in addition to traditional forms of publication in accordance with the demands of the information society directly makes the replenishment of library collections, especially university, electronic resources. necessity. From this point of view, the realization of library policy is relevant. Currently, modern library collections are completed with traditional print resources, as well as electronic resources according to the requirements of the time. The replenishment of library collections is a continuous process carried out in the direction of meeting the ever-growing information needs of users. In general, the process of acquisition of electronic resources provides access to the world information market, providing convenient, easy search and retrieval of information without limitations in time and space. It is during this process that the basic principles of acquisition should be taken into account. In particular, the information needs of university users should be analyzed, the typology of readers should be studied, attention should be paid to the issues of technical support in order to provide access to electronic resources. From this aspect the article deals with the main criteria of selection and evaluation, which are important to take into account in the process of collecting the funds of the university library with electronic resources. At the same time, the importance of the policy of completing electronic resources and the main principles of this policy are widely explained.

**Keywords:** University libraries, library collection, electronic resources, acquisition, acquisition policy

---

* Baku State University, Lecturer of the Department of Library Science of the Information and Document Management Faculty; Baku, Azerbaijan
E-mail: sevdamammadova@bsu.edu.az
https://orcid.org/0000-0001-9469-5744

**To cite this article:** Mammadova, S. [2025]. Policy for Completing University Libraries with Electronic Resources. *“Metafizika” journal, 8*(1), pp.164-172.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i1.164-172

***Article history:***
*Received: 23.12.2024*
*Accepted: 03.03.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 004.3; 004.4; 025.4
**ББК:** 91.9: 78; 78.36; 78.37
**MJ №** 260
10.33864/2617-751X.2025.v8.i1.164-172

# Политика Комплектования Фонда Университетской Библиотеки Электронными Ресурсами

## Севда Мамедова*

**Абстракт.** Быстрое проникновение информационных технологий в нашу жизнь, растущий спрос на электронные ресурсы помимо традиционных форм публикации в соответствии с запросами информационного общества непосредственно делает необходимым комплектование библиотечных фондов, особенно вузовских, электронными ресурсами. С этой точки зрения реализация библиотечной политики в этом направлении является актуальной. В настоящее время современные библиотечные фонды комплектуются традиционными печатными ресурсами, а также электронными ресурсами в соответствии с требованиями времени. Комплектование библиотечных фондов- это непрерывный процесс, осуществляемый в направлении удовлетворения постоянно растущих информационных потребностей пользователей. В целом процесс комплектования электронными ресурсами обеспечивает доступ к мировому информационному рынку, обеспечивая удобный, легкий поиск информации и ее получение без ограничений во времени и пространстве. Именно в ходе этого процесса следует учитывать основные принципы сборки. В частности, следует проанализировать информационные потребности пользователей высшего образования, изучить типологию читателей, уделить внимание вопросам технического обеспечения с целью обеспечения доступа к электронным ресурсам. Именно в этом аспекте в статье рассматриваются основные критерии отбора и оценки, которые важно следует учитывать в процессе о комплектовании фондов вузовской библиотеки с электронными ресурсами. При этом широко разъясняется важность политики комплектовании с электронными ресурсами и основные принципы этой политики.

**Ключевые слова:** вузовские библиотеки, библиотечный фонд, электронные ресурсы, комплектования, политика комплектования

---

* Бакинский Государственный Университет, преподаватель кафедры Библиотековедения факультета Информационного и документного менеджмента; Баку, Азербайджан
E-mail: sevdamammadova@bsu.edu.az
https://orcid.org/0000-0001-9469-5744

**Цитировать статью:** Мамедова, С. [2025]. Политика Комплектования Фонда Университетской Библиотеки Электронными Ресурсами. *Журнал «Metafizika», 8*(1), с.164-172.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i1.164-172

***История статьи:***
*Статья поступила в редакцию: 23.12.2024*
*Отправлена на доработку: 27.01.2025*
*Принята для печати: 03.03.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 004.3; 004.4; 025.4
**KBT:** 91.9: 78; 78.36; 78.37
**MJ №** 260
10.33864/2617-751X.2025.v8.i1.164-172

# Ali Məktəb Kitabxana Fondlarının Elektron Resurslarla Kompektləşdirilmə Siyasəti

**Sevda Məmmədova***

**Abstrakt.** İnformasiya texnologiyalarının sürətlə həyatımıza nüfuz etməsi, informasiyalaşmış cəmiyyətin tələbinə uyğun olaraq ənənəvi nəşr formaları ilə yanaşı elektron resurslara daha çox tələbatın artması prosesi bilavasitə kitabxana fondlarının, xüsusilə də ali məktəb kitabxana fondlarının elektron resurslarla komplektləşdirilməsini zərurətə çevirir. Bu baxımdan bu istiqamətdə kitabxana siyasətinin həyata keçirilməsi aktuallıq kəsb edir. Hal-hazırda müasir kitabxana fondları zamanın tələbinə uyğun olaraq ənənəvi çap resursları ilə yanaşı elektron resurslarla da kompləktləşdirilir. Kitabxana fondlarının komplektləşdirilməsi istifadəçilərin durmadan artan informasiya tələbatlarının ödənilməsi istiqamətində həyata keçirilən davamlı bir prosedir. Ümumiyyətlə elektron resurslarla komplektləşmə prosesi dünya informasiya bazarına çıxışı təmin etməklə zaman və məkan məhdudiyyəti olmadan rahat, asan informasiya axtarışını və onun əldə olunmasını təmin edir. Məhz bu proses zamanı komplektləşdirmənin əsas prinsipləri nəzərə alınmalıdır. Xüsusilə ali məktəb istifadəçilərinin informasiya tələbatları təhlil olunmalı, oxucu tiplogiyası öyrənilməli, elektron resurslara əlyetərlilik məqsədilə texniki təminat məsələlərinə diqqət yetirilməlidir. Məhz bu aspektdə məqalədə ali məktəb kitabxana fondlarının elektron resurslarla komplektləşdirilməsi prosesi zamanı nəzərə alınması vacib olan əsas seçim və qiymətləndirmə meyarlarından bəhs edilir. Eyni zamanda elektron resurslarla komplektləşdirmə siyasətinin əhəmiyyəti, bu siyasətin əsas prinsipləri geniş şəkildə izah edilir.

**Açar sözlər:** universitet kitabxanaları, fond, elektron resurslar, komplektləşdirmə, komplektləşdirmə siyasəti

* Bakı Dövlət Universiteti, İnformasiya və sənəd menecmenti fakültəsinin "Kitabxanaşünaslıq kafedrası"nın müəllimi; Bakı, Azərbaycan
E-mail: sevdamammadova@bsu.edu.az
https://orcid.org/0000-0001-9469-5744
**Məqaləyə istinad:** Məmmədova, S. [2025] Ali Məktəb Kitabxana Fondlarının Elektron Resurslarla Kompektləşdirilmə Siyasəti. *"Metafizika" jurnalı, 8*(1), səh.164-172.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i1.164-172

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 23.12.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 27.01.2025*
*Çapa qəbul edilmişdir: 03.03.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Son illər informasiya texnologiyalarının sürətli inkişafı kitabxanlara da təsirsiz ötüşməmişdir. Bu təsiri kitabxanalarda fondun komplektləşdirilməsi prosesindəki dəyişikliklərdən də aydın görmək mümkündür. Ənənəvi metodlarla təmin edilmiş çap məhsulları ilə yanaşı elektron resurslarların da sayı sürətlə artır və istifadəsi genişlənməkdədir. Müasir dövrdə istifadəçilərin informasiya tələbatlarını ödəmək məqsədilə müxtəlif üsullar meydana çıxmış və nəticədə kitabxanaya gəlmək əvəzinə informasiya texnologiyaları vasitəsilə dünyanın istənilən nöqtəsindən operativ şəkildə informasiya əldə etmək imkanı yaranmışdır. Artıq kitabxana fondları xüsusən də ali məktəb kitabxanaları öz fondlarını komplektləşdirilmə prosesi zamanı elektron informasiya resurslarına daha çox üstünlük verirlər. Bu bir sıra səbəblərlə əlaqədardır. Belə ki, zaman və məkan məhdudiyyəti olmadan informasiya əlçatarlığın təmin olunması, cari məlumatları izləmək imkanı, resursun eyni anda bir çox istifadəçi tərəfindən istifadə edilmə imkanının olması və s. bu səbəblərə daxildir.

Bütün dünya informasiya mərkəzlərinin çap və elektron informasiya resursları kitabxana fondları tərəfindən komplektləşdirilə bilər. Buna görə də bu sahədəki mövcud nəzəri anlayışlar sıradan çıxmış, yazılı siyasət xüsusi əhəmiyyət kəsb etməyə başlamışdır [Olcay, s.1].

İngilis tədqiqatçısı Kovaks elektron kitabxananın komplektləşdirilməsinin inkişaf mərhələlərini 4 maddə ilə ifadə etmişdir:

1. Elektron kitabxananın məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi;
2. Elektron fondun formalaşdırılması siyasətinin həyata keçirilməsi;
3. Elekron resurslar fondunun formalaşdırılmasında bütün mərhələlərin nəzərə alınması;
4. Elektron resursların mövcud olduğu veb səhifənin dizaynına diqqət yetirilməsi, davamlı fəaliyyət göstərməsinin təmin edilməsi.

Qeyd etdiyimiz bu maddələri müəyyənləşdirərkən elektron sənədlərin inkişafını təşkil edən və inkişafına təsir edən bir çox amillər də (istifadəçi, büdcə, komplektləşdirmə və s.) nəzərə alınmalıdır [Kovacs, s.338-339].

Elektron sənədlərlə komplektləşdirilmə prosesində ənənəvi seçim meyarlarından əlavə, resursların (fondun) həcminin çox olması səbəbindən bəzi seçim və qiymətləndirmə meyarlarının da nəzərə alınması məqsədəuyğun sayıla bilər. Onları aşağıdakı kimi sıralaya bilərik:

## 2.Elektron resurslarla komplektəşdirmə prosesində məzmun

Komplektləşmə prosesi zamanı xüsusən elektron resurların əldə olunması və seçilməsi prosesində universitetin profili, fakültə tədris proqramları, oxucu tələbatları, onların elmi tədqiqat istiqamətlərinin mütləq şəkildə nəzərə alınması çox mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə prioritet

istiqamətlərdən biri sənədlərin istifadəçilərin tələb və tələbatlarını ödəməsidir. Bu səbəbdən elektron resursların məzmunu kitabxanaların məqəsdlərinə uyğun olmalı və istfadəçilərin tələbatlarını ödəmək iqtidarında olmalıdır. Bu proses zamanı kitabxanaçı aşağıdakı sualara cavab tapmalıdır:

- Cari informasiya mənbələrinə daxil olmaq üçün yeniləmələr vaxtında edilirmi?
- Veb sayt kifayət qədər aydın, anlaşıqlı və istifadəyə yararlıdırmı?
- Bütün mənbələrə giriş mümükündürmü? [Akçal., Kaya, s.83], [Atılgan, s.785].
- Kolleksiyanın ehtiyat nüsxəsi varmı? və s.

**3.Elektron resurslarla komplektəşdirmə prosesində əhatə dairəsi**

Elektron sənədlərlə komplektləşdirmənin tətbiq sahəsi və ya əhatə dairəsi bir çox ünsürlərdən təşkil olunmuşdur. Kolleksiyadakı mənbələrin hansı mövzuları əhatə etməsi, hansı sahələrlə əlaqəli olması, mənbə müxtəlifliyinin nə qədər geniş profilli olması, mənbələrə əlçatarlıq, mövcud mənbələrin xidmət edilən istifadəçi qruplarının tələbatlarına cavab verəcək səviyyədə olub olmaması və s. xüsusiyyətlər elektron resursların əhatəsini təşkil edir. [Guenther, s.59], [Hastings, s.111] Bununla yanaşı elektron resurların müxtəlif formalarda (elektron jurnal, tam mətnli məlumat bazaları, audio, video formatı) mövcudluğu kitabxanaların da bu resusrları müxtəlif formatlarda öz oxucularına təqdim etməsinə və onların çox aspektli tələbatlarının ödənilməsinə şərait yaradır.

**4.Elektron resurslarla komplektəşdirmə prosesində funksionallıq**

Ali məktəb kitabxanaları həm elmi, həm də təhsil məqsədli açıq giriş resurslarına Open Accsses əlyetərliliyi təmin etməklə istifadəçilərinə geniş məlumat bazalarından istifadəyə imkan yaratmalıdır. Elektron resurslar multidissiplenar xarakter daşımalıdır ki, buraya həm humanitar yönümlü, həm də texniki yönümlü məlumat bazaları seçilməlidir. Kolleksiyanın ilkin xüsusyyətlərindən biri istifadəçilərin bu kolleksiyadan faydalanmasıdır. Elektron informasiya bazalarında çap sənədlərindən fərqli olaraq istifadəçilərin buraya daxil ola biləcəyi mühit, şərait fərqlidir. Məhz bu nöqtədə funksionallıqla qarşılaşırıq. Elektron resursların funksionallığı informasiya mənbələrindən heç bir manə olmadan istifadəsi baxımından çox mühüm əhəmiyyət daşıyır. Funksionallıqla bağlı nəzərə alınması vacib olan xüsusiyyətlər aşağıdakılardır:

- Məlumat bazalarına uzaq məsafədən əlçatarlıq varmı?
- Resursların yerləşdiyi kataloq, interfeys, vebsayt və s. istifadə üçün uyğundurmu?
- İzahlı və anlaşıqlı dildədirmi?

- İstifadəçinin işini asanlaşdıracaq xüsusiyyətlərə malikdirmi? [Allison, Swanson, s.56]

**5.Elektron resurslarla komplektəşdirmə prosesində büdcə**

Elektron informasiya bazalarının seçilməsi prosesində bir çox ünsürlər maliyyə xərclərinə təsir edir. Belə ki, istifadəçi qrupun xüsusiyyətləri, sayı, həcmi, məlumat bazalarına giriş və s. amillər xərclərə təsir göstərir. [Salman, s.69-70]

Bu amilləri maddələrlə qeyd etsək xərc tələb edən amillər aşağıdakı kimi göstərilə bilər:

- Xüsusi bir istifadəçi məhdudiyyəti varmı?
- Elektron resurslarda qiymətqoyma nəyə əsasən aparılır?
- İllik qiymət artımı nədir və necə müəyyənləşdirilir?
- Ən son aktual nəşrlərə giriş varmı və ya məhdudiyyət tətbiq edilibmi?

**6.Elektron resurslarla komplektəşdirilmə prosesində lisenziya**

Eektron resurslar istifadəçilərə lisenziya müqaviləsinə uyğun olaraq təklif olunur. Kitabxanalar və ya konsorsiumlar elektron informasiya bazaları satın almaq üçün müvafiq şirkət və orqanlarla lisenziya müqaviləsi imzalayırlar. Lisenizya müqaviləsində məhsulu necə istifadə etmək, mənbənin istifadəsində resursun malik olduğu üstünlüklər və çatışmazlıqlar və s. əks olunur. Odur ki bütün bunlar nəzərə alınaraq elektron resursların istifadəsi zamanı lisenziya müqavilələrinin bağlanması, müəllif hüququ, resursların təhlükəsizliliyi kimi və digər hüquqi məsələlərə ciddi yanaşılmalıdır. Belə ki resursun lisenziya şərtləri, müəllif və istifadə hüquqları düzgün təzimlənməlidir.

Bunlarla yanaşı elektron resurslarla komplektləşmə zamanı bu resurslara asan əlyetərliliyin təmin olunması üçün onların düzgün təsnifatı aparılmalıdır. Son amil kimi istifadəçilərə elektron resurslardan istifadə ilə bağlı və dəstək xarakterli təlimlərin, seminarların təşkil edilməsi prioritet məsələ hesab olunmalıdır.

Qeyd edək ki, bütün bu yuxarıda qeyd etdiyimiz secim və qiymətləndimə meyarlarının məcmusu komplektləşmə siyasətində öz əksini geniş və dolğun şəkildə tapmalıdır. Siyasət dar mənada müəyyən bir məqsədə və ya hədəfə çatmaq üçün tətbiq olunan üsul və ya metoddur. Digər mənada müəyyən edilmiş məqsəd və ya vəzifələrə çatmaq istiqamətində qərar və əməllər (hərəkətlər) məcmusudur. Kitabxanaçılıqda isə siyasət “*müəyyən bir müəssisə daxilində geniş fəaliyyət üçün məqbul təcrübə və prosesləri yazılı şəkildə təsvir edən bir sıra inzibati planlar ya da bələdçilərdir*”. [Heartstill, 1983, s.175]

Müasir dövrün tələbatçılarına opertiv, etibarlı və aktual informasiya xidmətinin həyata keçirilməsi bilavasitə elektron resurslarla komplektləşdirmə prosesindən asılıdır. Belə ki, bu siyasət elektron resursların seçilməsi, onların əldə olunması üsul və vasitələri, idarə olunmasına və istifadəçilərə

çatdirilmasına xidmət edir. Komplektləşdirmə siyasəti əsasən resurs, büdcə, seçim və çeşidləmə kimi sahələri əhatə edən rəsmi sənədlər kimi müəyyən edilir. [Johnson, 2009, s.73]

Komplektləşdirmə siyasəti müxtəlif məqsədlərə xidmət edir. Bu məqsədlər aşağıdakı kimi təsnif edilə bilər:

-İstifadəçi tələbatlarının ödənilməsi;
-Müasir informasiya texnologiyalarına inteqrasiya;
-İnformasiya resurslarının nomenklaturasının artırılması;
-Operativ və çevik idarəretmə.

Ümumiyyətlə bu məqsədlər özlüyündə iki hissəyə bölünür: İnformasiya xidməti və mühafizə

Komplektləşdirilmə siyasəti fondun zəif və güclü tərəfləri, gələcək inkişafı və kitabxananın vəzifələri haqqında məlumat verir. Bu siyasət kitabxana, işçi və istifadəçi (oxucu) arasında əlaqə yaradır. Bu siyasət kitabxananı xarici təsirlərdən, eyni zamanda hər hansı ittiham zamanı qoruyur, fikir azadlığının qorunub saxlanmasını təmin edir. Komplektləşmə siyasəti bir çox məqsədlərə xidmət etdiyi üçün hər bir kitabxana üçün zəruridir. Bu siyasət fond haqqında geniş məlumat verir, kitabxana fondunun yaradılması zamanı büdcəni müəyyən etməyə kömək edir. Həmçinin kitabxananın intellektual mülkiyyət hüquqları, senzuraya münasibətini əks etdirir, sənədlərin (res.) seçilməsindən hədiyyə (ianə) etməyə qədər olan prosesdə prioritetlərin müəyyənləşdirilməsinə kömək edir. [Johnson, 1994, s.3-6] Elektron resurslarla komplektləşmə siyasətinin prinsiplərinə nəzər yetirək:

Bu siyasət planlı, çox istiqamətli və anlaşıqlı olmalıdır. Siyasət hazırlanarkən aşağıdakılar nəzərə alınmalıdır:

- Siyasət niyə və kim tərəfindən hazırlanmalıdır?
- İnstitutsional məqsədlər və prioritet istiqamətlər hansılardır?
- İstifadəçi qrupları kimlərdir?
- Fondda hansı elm sahələri olacaq?
- Hansı növ sənədlər daxil ediləcək?
- Kitabxanaya hədiyyə etmə kriteriyaları hansılardır?
- Çeşidləmə siyasətə geniş şəkildə daxil edimişdirmi?
- Qiymətləndirmə nə vaxt və kimin məsuliyyəti altında aparılacaq?
- Mühafizə prinsipləri nələrdir?

**7.Nəticə**

Qeyd edək ki uzun müddət respublikamızda kitabxanaların maddi-texniki bazasının zəifliyi, əksəriyyətinin binalarının yararsız və qəza vəziyyətində olması, xidmət və komplektləşdirmə işinin lazımi səviyyədə olmaması, kadrların peşə hazırlığının aşağı olması, kitabxana işinə dair ədəbiyyatın və dövri nəşrlərin kifayət qədər çap olunmaması, beynəlxalq əlaqələrin zəifliyi bu

sahənin inkişafına maneçilik törədən əsas amillərdən olmuşdur. Bütün bunlar isə öz növbəsində ölkə əhalisinin informasiya təminatı sistemində ciddi problemlər yaratmışdır. Bu problemlər öz həllini "*Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı*"nın qəbulundan sonra tapmağa başlamışdır. Belə ki, proqram kitabxana-informasiya sahəsində mövcud problemlərin sistemli həllinə yönəldilmişdir. Proqamda xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biri də məhz kitabxana fondlarının müasir komplektləşdirmə mexanizminin yaradılması, inkişafı və müasir informasiya daşıyıcıları ilə təmin edilməsi, kitabxanalarda fondların komplektləşdirilməsinə dair monitorinqlərin keçirilməsi, oxuculara verilən ədəbiyyatın tematik-tipoloji uçotunun təşkili, fəal və qeyri-fəal istifadə edilən nəşrlərin müəyyənləşdirilməsi, oxucuların informasiya tələbatının ödənilməsinə yönəldilmiş sorğuların keçirilməsi və əldə edilmiş nəticələr əsasında fondların komplektləşdirilməsi olmuşdur.

Bir şeyi xüsusilə vurğulamaq yerinə düşər ki, hazırda respublikamızda kitabxana fondlarının xüsusən də ali məktəb kitabxanalarının oxucu tələbatlarına cavab verəcək səviyyədə komplektləşdirilməsi istiqamətində çox mühüm, olduqca əhəmiyyətli işlər həyata keçirilməkdədir. Lakin bütün növ kitabxana fondları üçün nəzərdə tutulmuş vahid kitabxana siyasəti ilə yanaşı ali məktəb kitabxanalarına xarakterik olan mükəmməl elektron resurslarla komplektləşmə siyasətinin həyata keçirilməsinə böyük ehtiyac duyulmaqdadır.

## ƏDƏBİYYAT

1. Akçal, İ., & Kaya, S. (2006). Bilgi merkezleri için veri tabanı seçim kriterleri ve kullanıcı eğitimi. *Bilgi Dünyası, 6*(1), 78-88.
2. Allison, D., & Swanson, B. M. (2000). Database selection: One size does not fit all. *College & Research Libraries, 61*(1), 56-63.
3. Atılgan, D. (1995). Türkiye'de Kütüphaneciliğin Gelişimi. *Türk Kütüphaneciliği, 9*(1), 10-20.
4. Guenther, K. (2000). Making smart licensing decisions. *Computers in Libraries, 20*(6), 58-60.
5. Hastings, S. K. (1998). Selection and evaluation of networked information resources. *The Acquisition Librarians, 10*(20), 109-122.
6. Johnson, P. (1994). Collection development policies: A cunning plan. *Technicalities, 6*(14), 3-6.
7. Johnson, P. (2009). *Fundamentals of Collection Development and Management.* Chicago, IL: American Library Association.

**8.** Kovacs, D. K. (2000). Collection development in cyberspace: Building an electronic library collection. *Library Hi Tech*, *18*(4), 335-359.
**9.** Olcay, E. (1997). Elektronik Bilgi Kaynakları ve Derme Geliştirme Politikaları. *III. Türkiye'de Internet Konferansı,* ODTÜ, Ankara, Kasım.
**10.** Salman, P. (2002). Elektronik bilgi kaynaklarının seçimi ve değerlendirilmesi: Hacettepe Üniversitesi kütüphaneleri örneği (Yüksek Lisans Tezi). Ankara, Hacettepe Üniversitesi.
**11.** Heartstill, Young, et al. (1983). *The ALA Glossary of Library and Information Science* (2nd ed.). Chicago: American Library Association.

## REFERENCES

**1.** Akchal, I., & Kaya, S. (2006). Database selection criteria and user education for information centers. *World of Information*, *6*(1), 78–88. (In Turkish)
**2.** Allison, D., & Swanson, B. M. (2000). Database selection: One size does not fit all. *College & Research Libraries, 61*(1), 56–63. (In English)
**3.** Atilgan, D. (1995). The development of librarianship in Turkey. *Turkish Librarianship, 9*(1), 10–20. (In Turkish)
**4.** Guenther, K. (2000). Making smart licensing decisions. *Computers in Libraries, 20*(6), 58–60. (In English)
**5.** Hastings, S. K. (1998). Selection and evaluation of networked information resources. *The Acquisition Librarians, 10*(20), 109–122. (In English)
**6.** Johnson, P. (1994). Collection development policies: A cunning plan. *Technicalities, 6*(14), 3–6. (In English)
**7.** Johnson, P. (2009). *Fundamentals of Collection Development and Management.* Chicago, IL: American Library Association. (In English)
**8.** Kovacs, D. K. (2000). Collection development in cyberspace: Building an electronic library collection. *Library Hi Tech, 18*(4), 335–359. (In English)
**9.** Olcay, E. (1997). Electronic information resources and collection development policies. *III. Internet Conference in Turkey*, ODTU, Ankara, November. (In Turkish)
**10.** Salman, P. (2002). The selection and evaluation of electronic information resources: A case study of Hacettepe University libraries (Master's thesis). Hacettepe University, Ankara. (In Turkish)
**11.** Heartstill, Young, et al. (1983). *The ALA Glossary of Library and Information Science* (2nd ed.). Chicago: American Library Association. (In English)